# SAĞLAMLIĞIN QORUNMASI HÜQUQUNUN DÖVLƏTDAXİLİ TƏMİNATLARININ SİSTEMİ

**Pənahov Fuad Rauf oğlu,**
**Hüquq və İnsan Haqları İnstitutunun dissertantı.**
E-mail: lala-axmedova@mail.ru

*Bu məqalədə sağlamlığın qorunması hüququnun dövlətdaxili təminatlarının sistemi ilə bağlı məsələlər təhlil edilmişdir. Müəllif dövlətdaxili səhiyyə sistemində sağlamlığın qorunması hüququnun təminatları sisteminin təkmil və səmərəli olmasının əhəmiyyətini göstərir, sağlamlığın qorunmasına dair qanunvericilikdə sağlamlığın qorunması və tibbi yardım almaq hüququnun təminatlarının sistemli şəkildə təsbit edilməməsinə diqqəti çəkir və bu baxımdan, həmin təminatlar sisteminin "Əhalinin sağlamlığın qorunması haqqında" Azərbaycan Respublikası Qanununda ayrıca bir maddədə kompleks şəkildə təsbit edilməsi təklifini irəli sürür.*

**Açar sözlər:** sağlamlıq, sağlamlığın qorunması, tibbi yardım, sağlamlığın qorunması hüququ, hüquqi təminatlar, konstitusion təminatlar, məhkəmə müdafiəsi, məhkəmədənkənar müdafiə formaları.

Öz-özlüyündə təminatlar kifayət qədər geniş anlayışdır. Məlum olduğu kimi, nəzəri mənbələrdə məzmununa və xarakterinə görə bütün təminatlar, əsasən, 4 qrupa bölünür:

a) siyasi təminatlar;
b) iqtisadi təminatlar;
c) sosial təminatlar;
ç) hüquqi təminatlar.

Təsbit üsulundan və subyektindən asılı olaraq, sağlamlığın qorunması hüququnun dövlətdaxili hüquqi təminatları aşağıdakı qruplara bölünə bilər:

– Konstitusiyada təsbit edilən təminatlar;
– qanunlarda və digər normativ aktlarda təsbit edilən təminatlar;
– məhkəmə müdafiəsi təminatı;
– prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı təminatlar;
– İnsan hüquqları üzrə müvəkkilin fəaliyyəti ilə bağlı təminatlar;
– sağlamlığın qorunması və tibbi yardım almaq hüququnun təminatı kimi səhiyyə sistemi [6].

L.D.Voyevodin fəaliyyətindən vətəndaşların hüquq və azadlıqlarının reallıq dərəcəsinin asılı olduğu hüquqi təminatların üç növünü göstərir. Birinci, bu konstitusion hüquqa malik olma və xüsusilə, onun realizəsi ilə əlaqədar yaranan məsələlərin həll edilməsində ifadə olunan dövlət orqanlarının səlahiyyətliliyidir. İkinci, bu hüquq və azadlıqların dürüst realizəsi və bu zaman sui-istifadələrə yol verilməməsi üçün vətəndaşların və vəzifəli şəxslərin məsuliyyətinin müəyyən edilməsidir. Üçüncü, bu, vətəndaşların pozulmuş hüquqlarının bərpa edilməsi və müdafiəsinin prosedur-prosessual qaydasıdır [7, s. 57-58].

Şəxsiyyətin hüquqlarının hüquqi təminatları sistemində, bəzən, həyata keçirilmə

təminatları və mühafizə təminatları fərqləndirilir. Həyata keçirilmə təminatlarına, əsasən, hüquq və azadlıqların həcmi, cari qanunvericilikdə onların konkretləşdirilməsi, həyata keçirilmənin prosessual formaları, hüquqauyğun davranışın stimullaşdırılması üçün həvəsləndirmə tədbirləri və müxtəlif güzəştlər aid edilir. Çox vaxt həyata keçirilmə təminatları sırasında hüquqi faktlar da göstərilir. Məlum olduğu kimi, subyektiv hüquqların əldə edilməsi və bu hüquqlarda bilavasitə istifadə olunması hüquqi faktlarla bağlıdır. Belə bir fikir mövcuddur ki, hüquqi faktlar yalnız hüquq normaları ilə onların nəzərdə tutduğu hüquq və azadlıqların həyata keçirilməsi arasında aralıq halqa deyil, həm də belə həyata keçirilmənin fəal elementidir. Başqa sözlə, konkret hüquq və azadlıqların həyata keçirilməsi, ilk növbədə, müəyyən hüquqi faktların baş verməsi ilə şərtlənir. Hüquqi təminatların ikinci qrupuna, yəni mühafizə təminatlarına isə konstitusiya nəzarəti, müdafiə tədbirləri, şəxsiyyətin hüquq və azadlıqlarının pozulmasında təqsirli olanlara qarşı məsuliyyət tədbirləri, nəzarətin reallaşdırılmasının prosessual formaları, hüquqların pozulmasının xəbərdar edilməsi və profilaktikası, eləcə də digər bu kimi hüquqi vasitələr aiddir.

N.Q.Plaxotnyuk təminatları dövlət, yerli özünüidarə orqanları tərəfindən insan hüquqlarının təmin edilməsi və ya şəxsin öz subyektiv hüquqlarını reallaşdıra bilməsi üçün əlverişli şəraitin yaradılması kimi nəzərdən keçirir. Müəllifin fikrincə, reallaşdırma nəticəsində şəxs öz təşəbbüsü və ya dövlətin təşəbbüsü ilə konkret nemətlər əldə edirsə, bundan fərqli olaraq, təmin etmə dövlətin obyektiv mövcud olan və konstitusion və qanunvericilik normaları ilə təsbit olunan mexanizm və imkanlarının məcmusunu nəzərdə tutur. Müəllif təminatları ümumi (hüquq məzmunundan asılı olmayaraq reallaşdırılır) və konkret təminatlara bölür. Ümumi təminatlara konstitusion hüquqların məhkəmə müdafiəsi, hüququn aliliyi prinsipi, ayrı-seçkiliyin olmaması, hüquqi yardım almaq hüququ, qüvvədə olan qanunlara dəyişikliklər edilməsi hallarında, habelə fövqəladə vəziyyət elan olunması zamanı (müstəsna olaraq dövlətin konstitusiyası ilə nəzərdə tutulmuş hallar istisna olmaqla) insan hüquqlarının məhdudlaşdırılmasının yolverilməzliyi aiddir. Konkret hüquqların təminatları isə hüququn özü ilə birlikdə konstitusiyanın maddələrində öz əks tapır [10, s. 37].

Prof. M.N.Əliyev göstərir ki, təminatların xüsusi qrupuna insan və vətəndaş hüquq və azadlıqlarının dövlət müdafiəsinin hüquqi (konstitusion) təminatları aid edilir. Buraya insan və vətəndaş hüquq və azadlıqlarının dövlət təminatı (Konstitusiyanın 26-cı maddəsinin ikinci hissəsi), məhkəmə müdafiəsi təminatı (Konstitusiyanın 60-cı maddəsi), ixtisaslaşmış hüquqi yardım almaq hüququ (Konstitusiyanın 61-cı maddəsi), hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ (Konstitusiyanın 26-cı maddəsinin birinci hissəsi) və s. aiddir [4, s. 14]. Bütün qeyd olunan təminatlar, təbii ki, insan və vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi sağlamlığın qorunması hüququna da şamil olunur.

A.İ.Sergeyevin fikrincə, sağlamlığın qorunması hüququnun konstitusion təminatları hüquqi təminatlar sistemində xüsusi yer tutur. Çünki onlar başlanğıc və baza əhəmiyyəti

kəsb etməklə, fundamental xarakter daşıyır. Müəllif sağlamlığın qorunması hüququnun konstitusion hüquqi təminatını konstitusiya qanunvericiliyinin ümumi şərtlər müəyyən edən normalarının, habelə göstərilən hüququn təmin edilməsi üzrə konkret hüquqi üsul və vasitələrin məcmusu kimi xarakterizə edir [11, s. 8].

İnsanın sağlamlığı və sağlamlığın vəziyyəti ilə əlaqədar diaqnoz qoyulması xüsusi biliklər tələb edir. Bu biliklər isə tibbi biliklərdir və heç də hər kəs bu biliklərə malik deyildir. Adətən, insan sağlamlığının vəziyyətini öyrənmək üçün peşəkarlara müraciət edir və bu zaman bütövlükdə sağlamlıqla bağlı alına biləcək obyektiv informasiya üçün o, peşəkardan asılı vəziyyətə düşür. Bu cür təbii vəziyyətdən irəli gələn asılılıq, bəzən, müvafiq vəzifəli şəxslərin sui-istifadəsinə səbəb olur və bir çox hallarda bu, sağlamlıqla bağlı ağır nəticələrə gətirib çıxarır. Buna görə də, Konstitusiyada belə şəxslər üçün birbaşa məsuliyyət müəyyənləşdirilir və göstərilir ki, həyat və sağlamlıq üçün təhlükəli faktları gizlədən şəxslər məsuliyyətə cəlb olunurlar [3, s. 238]. Respublikamızda ahalinin sağlamlığın qorunması hüququnun mühüm təminatları sırasında işçi sağlamlığı və əməyin təhlükəsizliyi hüququna zəmanət verilməsini göstərmək olar. Bu məsələlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin "Əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri" adlı 33-cü fəsli ilə yanaşı Azərbaycan Respublikası Konstitusiyasının 35.6-cı maddəsi ilə tənzimlənir. İşçinin sağlamlığının pozulması işçinin özünün və ailəsinin qarşılaşa biləcəyi böyük təhlükəyə çevrilə bilər. İşçinin sağlamlığının qaydasında olması sadəcə işçi baxımından deyil, işəgötürən baxımından da olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, iş yerində sağlamlığın pozulması halları istehsalın sürətini aşağı salmaqla gəlir itkisinə səbəb olacaqdır. Sağlamlığın mühafizəsi üçün ilk olaraq sağlamlığı poza biləcək halların dəqiq şəkildə müəyyən olunması vacibdir. İş yeri mühitində çalışanların sağlamlığını poza biləcək bir çox faktor mövcud ola bilər, bu faktorların işçilərə nə dərəcədə və hansı səviyyədə təsir edəcəyi müəyyənləşməli və bu istiqamətdə risk dəyərləndirilməsinin aparılması vacibdir. Aşağıda qeyd olunan tədbirlər işçilərin sağlamlığının mühafizəsinə yardım edə bilər: əmək mühitində mövcud olan risklərin aradan qaldırılaraq minimuma endirilməsi; istehsal təhlükəsizliyindən maksimum səviyyədə istifadə edilməsi; işçilərinin iş yerlərində istifadə etdikləri avadanlıqların və iş yerinin əmək şəraitində təhlükəsizliyinin təmin edilməsi; işçilərin sağlamlıqlarına mənfi təsir göstərən təhlükələrdən onların müdafiəsi; işçilərin psixoloji və fizioloji keyfiyyətləri nəzərə alınaraq işlə təmin olunması [5, s. 7].

Siyasi xarakterli konstitusion təminatlar ölkənin siyasi inkişaf səviyyəsindən, cəmiyyətdə hakimiyyətin təşkilindən, onun səmərəliliyindən, həyata keçirilən siyasətdən asılıdır. Siyasi təminatlar dövlətin demokratik hüquqi xarakter daşımasını, insanın, onun hüquq və azadlıqlarının ali dəyərlər kimi tanınmasını, həm bilavasitə, həm də dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına seçilən nümayəndələr vasitəsilə həyata keçirilən xalq hakimiyyətini ehtiva edir. Sağlamlığın qorunması hüququnun mühüm siyasi təminatlarından biri kimi konstitusion səviyyədə siyasi müxtəlifliyin və çoxpartiyalı sistemin təsbit olunmasını qeyd etmək olar.

Belə ki, əksər siyasi partiyalar seçkiqabağı təşviqat mərhələsində daha böyük dəstək əldə etmək məqsədilə səhiyyənin inkişaf etdirilməsi, tibii xidmətlərin əlçatanlığının artırılması, tibbi yardımın pulsuz göstərilməsi və s. bu kimi məsələləri xüsusi olaraq qabartmağa çalışırlar.

E.N.Kadoliç qeyd edir ki, sosial-iqtisadi (müəyyən qrup əlilliyi olan şəxslərə aylıq müavinət verilməsi, əmək haqqı saxlanılmaqla müalicə üçün işçilərə müalicə vərəqələrinin verilməsi və s.) və siyasi (sağlam həyat tərzinin təbliği, səhiyyənin inkişafı üçün normal iqtisadi şəraitin yaradılması və s.) təminatlarla yanaşı təşkilati və hüquqi təminatlara da xüsusi diqqət yetirmək lazımdır. Çünki vətəndaşların sağlamlığın qorunmasına olan konstitusion hüququnun təmin edilməsi xüsusiyyətləri həmin təminatlarda özünü göstərir. Bu sahədə təşkilati təminatlara vətəndaşların tibbi yardım, sanitar-epidemioloji rifah və dərman təminatına olan hüquqlarının həyata keçirilməsinin təmin edilməsi üçün zəruri şəraitin yaradılmasına yönələn təşkilati tədbirlərin məcmusu aiddir. Hüquqi təminatlar dedikdə isə vətəndaşların sağlamlığın qorunmasına olan hüququnun realizəsi, mühafizəsi və müdafiəsini təmin edən hüquqi norma və vasitələrin məcmusu və şəxsin öz hüququnu istənilən instansiyada və istənilən səviyyədə müdafiə etmək imkanı nəzərdə tutulur. Onları iki qrupa bölmək olar: 1) sağlamlığın mühafizəsinə yönələn təminatlar; 2) sağlamlığın müdafiəsinə yönələn təminatlar [8, s. 424-427]. Birinci qrup təminatlar vətəndaşların şüuruna müraciət edir. Onların təyinatı vətəndaşları qanuna riayət etməyə inandırmaqdır. Bu təminatlar şüurlarda məsuliyyətin labüdlüyü barədə rəy formalaşdıraraq xəbərdaredici təsir göstərirlər. Qanunvericilik, ilk növbədə, bu qrup təminatlara xüsusi diqqət yetirməlidir. Çünki bəzi hallarda pozulmuş olan sağlamlığın qorunması hüququnu ümumiyyətlə bərpa etmək mümkün olmur. Hüquqi təminatların ikinci qrupu məcburi xarakter daşıyır, belə ki, artıq pozulmuş olan hüququn bərpasına və təqsirli şəxslərin məsuliyyətə cəlb olunmasına yönəlir. Onlara aiddir [8, s. 424-425]:

– vətəndaşların müdafiə üçün dövlət orqanlarına müraciət etməsinə imkan verən normalar;

– mülki məsuliyyət müəyyən edən normalar (sağlamlığa vurulmuş zərərin əvəzinin ödənilməsi);

– cinayət məsuliyyəti müəyyən edən normalar (ehtiyatsızlıqdan ölümə səbəb olma, ehtiyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurma və s.).

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə əsasən, pasiyentin hüquqları pozulduqda, o, müalicə-profilaktika müəssisəsinin rəhbərliyinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər.

Sağlamlığın qorunması və tibbi yardımın göstərilməsi məsələləri üzrə mübahisələrə məhkəmə baxışı gedişində bir sıra ictimai əhəmiyyətli funksiyalar reallaşdırılır. Belə ki, konkret mübahisəli məqamlar həll edilir, səhiyyə orqanlarının və tibb müəssisələrinin fəaliyyətinə məhkəmə nəzarəti həyata keçirilir, sağlamlığın qorunması və tibbi yardımla bağlı qüvvədə olan normativ hüquqi aktların keyfiyyəti hüquqtətbiqetmə praktikası baxı-

mından peşəkar şəkildə qiymətləndirilir, həm qanunvericilik, həm də səhiyyə sahəsində dövlət idarəetməsini həyata keçirən icra hakimiyyəti orqanları tərəfindən istifadə oluna bilən tövsiyələr işlənib hazırlanır.

A.A.Nastepanina qeyd edir ki, vətəndaşların sağlamlığın qorunması sahəsində pozulmuş konstitusion hüquqlarının bərpasının məhkəmədənkənar formalarına, əsasən, prokurorluq orqanlarına müraciət, ictimai təşkilatlara və digər qeyri-dövlət institutlarına müraciət və icbari tibbi sığorta sisteminə daxil olan orqanlara müraciət aid edilməlidir. Müəllifin fikrincə, ictimai təşkilatların və digər qeyri-dövlət institutlarının iştirakı məhkəməyə qədər olan mərhələdə vətəndaşların tibbi xidmət sahəsində pozulmuş hüquqlarının bərpasında az rol oynamır. Belə təşkilat və institutlar vətəndaşların maraqlarını təmsil edə, dövlət hakimiyyəti, yerli özünüidarə orqanları və ictimai birliklərdə onların hüquqlarını müdafiə edə, öz nizamnamə məqsədlərinin həyata keçirilməsi ilə bağlı məsələlərə dair təşəbbüslərlə çıxış edə, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına təkliflər göndərə bilərlər [9, s. 110-115].

Məhkəmədənkənar müdafiənin özü iki formada həyata keçirilə bilər – idarədaxili və idarədənkənar qaydada. Birinci halda hüququ pozulmuş vətəndaş və pasiyent müvafiq tibb müəssisəsinin rəhbərliyinə, ikinci halda isə digər məhkəmədənkənar müdafiə institutlarına (prokurorluq orqanlarına, ombudsmana, icbari tibbi sığorta orqanlarına və s.) şikayət edir.

Vətəndaşların sağlamlığın qorunması hüququnun dolğun təminatında prokurorluq orqanları mühüm rola malikdir. Müasir biotexnologiyaların sürətli inkişafı kontekstində insanların nəzarətsiz və qanuni əsaslar olmadan aparılan elmi tədqiqatların qurbanına çevrilməməsi üçün hüquqi tənzimetmə yolu ilə elmi tədqiqatların lazımi və optimal hədləri müəyyən edilməlidir. Bu sahəyə prokurorluq nəzarəti gücləndirilməlidir. Cari qanunvericilik hər kəsin məhz keyfiyyətli tibbi yardım almaq hüququnun təminatlarını özündə əks etdirməlidir. Bu sahədə də qanunvericiliyə dəqiq və dönmədən əməl olunmasına prokurorluq nəzarəti daha effektiv həyata keçirilməlidir.

Sağlamlığın qorunması hüququnun ən mühüm dövlətdaxili təminatlarından biri kimi vəkillik institutu çıxış edir. Peşəkar müdafiə və nümayəndəlik institutu kimi vəkilliyin (vəkillik fəaliyyətinin həyata keçirilməsinin) başlıca məqsədi ehtiyacı olan hər kəsə hüquqi yardım göstərməkdən ibarətdir. Bu baxımdan, sağlamlığın qorunması və tibbi yardım sahəsində yaranan hüquqi mübahisələrdə vəkillik vətəndaşların müvafiq hüquqlarının təminatının ən etibarlı mexanizmlərindən biri kimi nəzərdən keçirilə bilər. Vəkil müdafiə prosesinin bütün mərhələlərində hüququ pozulmuş pasiyenti müşayiət edərək onun maksimal müdafiəsinin təmin edilməsi üçün bütün zəruri tədbirlərin görülmsinə şərait yarada bilər. Bir çox hallarda hüququ pozulmuş pasiyentlər öz hüquqlarını müstəqil müdafiə etməyə çalışır ki, bu da, müsbət nəticə vermir. Çünki peşəkar hüquqşünaslarla sadə vətəndaşların hüquqi bilikləri eyni deyildir. Ona görə də, sağlamlığın qorunması sahəsində hüquqları pozulmuş şəxslər daha dolğun hüquqi müdafiə ilə təmin olunmaq üçün peşəkar müdafiəçi kimi vəkilin xidmətindən istifadə etməlidirlər [1, s. 114].

Təbiətinə fərdlə dövlət arasında vasitəçilik missiyası xas olan Ombudsman institutu, əsas etibarı ilə, insan hüquqların müdafiəsi

və təbliği, o cümlədən cəmiyyətdə qanunçuluğun və ədalətin bərqərar olması məqsədi ilə yaradılmış məhkəmədənkənar hüquqmüdafiə mexanizmidir [2, s. 6]. İnsan hüquqları üzrə müvəkkil digər şikayətlərlə yanaşı sağlamlığın qorunması və tibbi yardım üzrə hüquqların pozulması ilə bağlı şikayətlərə də baxır. Müvəkkilin illik məruzələrinin təhlili göstərir ki, Müvəkkilin ünvanına sağlamlığın qorunması hüququ ilə bağlı daxil olan müraciətlər, əsasən, müalicə və müayinənin dövlət hesabına həyata keçirilməsi, dərman preparatlarının verilməsi və sağlamlıq hüququnun qorunmasının digər aspektləri ilə bağlı problemləri əhatə edir.

Beləliklə, bu məqalə çərçivəsində şərh edilən bütün fikirləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar.

1. Dövlətdaxili səhiyyə sistemində sağlamlığın qorunması hüququnun təminatları sistemi elə təkmil və səmərəli olmalıdır ki, tibb müəssisələri tərəfindən vətəndaşlara təqdim edilən tibbi yardımın keyfiyyəti göstərilən tibbi xidmətlərin özdənişli və ya ödənişsiz olması ilə şərtlənməsin. Sağlamlığın qorunması hüququnun dövlətdaxili təminat mexanizmi elə qurulmalıdır ki, keyfiyyətli tibbi yardım ehtiyacı olan hər kəs üçün əlçatan olsun.

2. Göstərmək lazımdır ki, tibb hüququnun mənbələri arasında sağlamlığın qorunması hüququnun təminatlarını, onların müdafiəsi üsullarını özündə əks etdirən vahid və sistemləşdirilmiş akt yoxdur. "Əhalinin sağlamlığın qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda isə sağlamlığın qorunması və tibbi yardım almaq hüququnun təminatları sistemi pərakəndə şəkildə təsbit edilmişdir. Belə ki, qanunda həmin təminatları müəyyən edən ayrıca maddə yoxdur və yalnız ayrı-ayrı maddələrdə bu məsələlərlə bağlı normalar mövcuddur. Qeyd edilən təminatların pratikada tətbiqi baxımından, belə hal məqsədəmüvafiq hesab edilə bilməz. Sağlamlığın qorunmasına dair qanunvericiliyin sağlamlığın qorunması və tibbi yardım almaq hüququnun təminatlarını özündə əks etdirən müddəalarının təhlili göstərir ki, sistemli şəkildə təsbit edilməməsi onların tətbiqinə özünün mənfi təsirini göstərir. Bu baxımdan, həmin təminatlar sisteminin "Əhalinin sağlamlığın qorunması haqqında" Azərbaycan Respublikası Qanununda ayrıca bir maddədə kompleks şəkildə təsbit edilməsi məqsədəuyğun olardı.

3. Müasir biotexnologiyaların sürətli inkişafı kontekstində insanların nəzarətsiz və qanuni əsaslar olmadan aparılan elmi tədqiqatların qurbanına çevrilməməsi üçün hüquqi tənzimetmə yolu ilə elmi tədqiqatların lazımi və optimal hədləri müəyyən edilməlidir. Bu sahəyə prokurorluq nəzarəti gücləndirilməlidir. Cari qanunvericilik hər kəsin məhz keyfiyyətli tibbi yardım almaq hüququnun təminatlarını özündə əks etdirməlidir. Bu sahədə də qanunvericiliyə dəqiq və dönmədən əməl olunmasına prokurorluq nəzarəti daha effektiv həyata keçirilməlidir.

**Ədəbiyyat**

1. Aslanov, Z.N. Sağlamlığın qorunması hüququ insan və vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi / Z.N.Aslanov. - Bakı: Elm və təhsil, - 2019. - 182 s.
2. Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti (2004-cü il üzrə illik məruzənin qısa icmalı). - Bakı: Qanun, - 2005. - 220 s.
3. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A.Əsgərov. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2006. - 698 s.

4. Qasımov, A.M. Əmək və sosial təminat sahəsində vətəndaşların hüquqlarının həyata keçirilməsinin təminatları. Monoqrafiya / A.M.Qasımov, M.N.Əliyev. - Bakı: Qanun, - 2012. - 240 s.
5. Altınel, H. İşçi sağlığı ve İş güvenliği / H.Altınel. - Ankara: Detay Yayıncılık, - 2011. - 272 s.
6. Антоненко, А.Ф. Конституционное право граждан на медицинскую помощь: содержание и проблемы реализации: / афтореферат дис. д.ра юрид. наук. / - Владивосток, 2006, - 25 с.
7. Воеводин, Л.Д. Юридические гарантии конституционных прав и свобод личности в социалистическом обществе / Л.Д.Воеводин. - Москва: Издательство МГУ,-1987,-342 с.
8. Кодолич, Е.Н. Права пациентов в современной Беларуси: гарантии и механизмы защиты // Сборник работ 70-й научной конференции студентов и аспирантов Белорусского государственного университета (15-18 мая 2013 г.), - Минск: - 2013, - с. 424-427.
9. Настепанина, АА. Гарантии и способы защиты права граждан на охрану здоровья в Российской Федерации // Северо-Кавказский юридический вестник, - 2016. № 4, - с. 110-115.
10. Плахотнюк, Н.Г. Гарантирование прав человека: механизмы и возможности государства / BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 65 illiyinə həsr olunmuş "Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, - Bakı: - 2014, - s. 37-45.
11. Сергеев,А.И. Реализация конституционного права каждого на охрану здоровья и медицинскую помощь в Российской Федерации: / дис. канд. юрид. наук. / - Москва, 2007. - 178 с.

# СИСТЕМА НАЦИОНАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ ПРАВА НА ОХРАНУ ЗДОРОВЬЯ

**Панахов Фуад Рауф оглы,**
**диссертант Института права**
**и прав человека.**

В данной статье анализируются вопросы, связанные с системой отечественных гарантий права на охрану здоровья. Автор показывает важность усовершенствованной и эффективной системы гарантий права на охрану здоровья в отечественной системе здравоохранения, обращает внимание на отсутствие системного обеспечения гарантий права на охрану здоровья и медицинскую помощь в законодательстве об охране здоровья и в связи с этим предлагает комплексно установить систему гарантий в отдельной статье Закона Азербайджанской Республики «Об охране здоровья населения».

**Ключевые слова:** здоровье, охрана здоровья, медицинская помощь, право на охрану здоровья, правовые гарантии, конституционные гарантии, судебная защита, формы внесудебной защиты.

## THE SYSTEM OF DOMESTIC PROVISIONS OF THE RIGHT TO HEALTH PROTECTION

**Panahov Fuad Rauf oghlu,**
**dissertation student of the Institute of Law and Human Rights.**

This article analyzes issues related to the system of domestic guarantees of the right to health protection. The author shows the importance of an improved and efficient system of guarantees of the right to health protection in the domestic health care system, draws attention to the lack of systematic provision of guarantees of the right to health protection and medical care in the legislation on health protection and in this regard, proposes that the system of guarantees be comprehensively established in a separate article in the Law of the Republic of Azerbaijan "On Health Protection of the Population".

**Key words:** health, health protection, medical assistance, the right to health protection, legal guarantees, constitutional guarantees, judicial protection, forms of extrajudicial protection.

## SAĞLIK HAKKININ KORUNMASINA YÖNELİK ULUSAL HÜKÜMLER SİSTEMİ

**Panahov Fuad Raufoğlu,**
**Hukuk ve İnsan Hakları**
**Enstitüsü tez öğrencisi.**

Bu makale, sağlığın korunması hakkının ulusal garantiler sistemi ile ilgili konuları analiz etmektedir. Yazar, yerel sağlık sisteminde sağlığın korunması hakkının gelişmiş ve verimli bir garanti sisteminin önemini göstermektedir, sağlığın korunmasına ilişkin mevzuatta sağlığın korunması ve tıbbi bakım hakkının güvence altına alınmasının sistematik olarak sağlanmadığına dikkat çekmektedir ve bu bağlamda, Azerbaycan Cumhuriyeti Kanununun "Halkın Sağlığının Korunması Hakkında" ayrı bir maddesinde garanti sisteminin kapsamlı bir şekilde oluşturulmasını teklif etmektedir.

**Anahtar kelimeler:** sağlık, sağlığın korunması, tıbbi yardım, sağlığın korunması hakkı, yasal güvenceler, anayasal güvenceler, adli koruma, yargısız koruma biçimleri.